Mədəniyyət.- 2023.- 21 iyul. S. 3.

# "İrsimizi tanıyaq, tanıdaq"

## Mədəniyyət Nazirliyi sosial videoçarx müsabiqəsi elan edib

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar "İrsimizi tanıyaq, tanıdaq" adlı sosial videoçarx müsabiqəsi elan edib.

Müsabiqə Ulu öndər Heydər Əliyevin mədəniyyətə və mədəni irsə qayğısını rəhbər tutaraq, Azərbaycanın qədim tarixi və zəngin mədəniyyətinin təbliği, vətənpərvərlik hissinin aşılanması, mədəniyyətə, incəsənətə, milli-mənəvi dəyərlərə, adət-ənənələrimizə hörmətin qorunub saxlanılması və inkişaf etdirilməsi, yeni yaradıcı qüvvələrin prosesə cəlb edilməsi məqsədilə təşkil olunur.




Müsabiqə iki mərhələdən ibarətdir: videoçarxların qəbulu və təqdim edilmiş materialların seçimi.

Milləti mədəniyyət, mədəniyyəti millət yaşadar. Sən də bu missiyanın bir hissəsi olmaq istəyirsənsə, müsabiqəyə qoşul, fərqli və yaradıcı yanaşmanı təqdim et, qalib ol.

Müsabiqəyə qatılmaq istəyən şəxslər hazırladıqları videoçarxı 20 iyul – 4 sentyabr 2023-cü il tarixlərində onlayn şəkildə təqdim edə bilərlər.

Qaliblərin adları 2023-cü il sentyabrın 20-də elan olunacaq.